| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 04.08.2003 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 911 |
| **ADI** | İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-08-2003, Nəşr nömrəsi: 08, Maddə nömrəsi: 440) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 31.08.2003 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 330.000.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 01.07.2011 |

**İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusuna uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Təsnifat Toplusuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

öz səlahiyyətləri daxilində İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbərinə tapşırılsın ki, bir ay müddətində:

Azərbaycan Respublikası Prezidentinin nomenklaturuna aid edilən dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsini təmin etsin;

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbərinin nomenklaturuna aid edilən dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsini təmin etsin.[1]

4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarına və yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, bir ay müddətində həmin orqanların aparatlarında işləyən dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsini təmin etsinlər.

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarına tapşırılsın ki, bir ay müddətində həmin orqanların aparatlarında işləyən dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsini təmin etsinlər.

6. Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarına tapşırılsın ki, İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusundan irəli gələn məsələləri həll etsinlər.

7. Azərbaycan Respublikasının Milli Məclisinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə, Azərbaycan Respublikasının Baş Prokurorluğuna, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (Ombudsmana), Azərbaycan Respublikasının Hesablama Palatasına, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına, Azərbaycan Respublikasının apellyasiya məhkəmələrinə, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinə, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Hərbi Məhkəməsinə, ~~Beynəlxalq Müqavilələrdən İrəli Gələn Mübahisələrə dair Azərbaycan Respublikası İqtisad Məhkəməsinə,~~ rayon (şəhər) məhkəmələrinə, hərbi məhkəmələrə və yerli iqtisad məhkəmələrinə, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə, Ağır Cinayətlərə dair İşlər üzrə Naxçıvan Muxtar Respublikasının Məhkəməsinə, Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsinə təklif edilsin ki, İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusundan irəli gələn məsələləri, o cümlədən həmin orqanların aparatlarında işləyən dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi məsələsini həll etsinlər.[2]

8. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 avqust 2003-cü il
911

Azərbaycan Respublikası Prezidentinin
4 avqust 2003-cü il tarixli 911 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**İnzibati və yardımçı vəzifələrin**

## TƏSNİFAT TOPLUSU[3]

### *1.* Ümumi müddəalar[4]

1.1. İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusuna "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun *1.1.11-ci* maddəsinə uyğun olaraq dövlət qulluqçularının inzibati və yardımçı vəzifələrinin təsnifatları və adları, ixtisas dərəcələri ~~*və vəzifələrin tutulması şərtləri*~~ haqqında məlumatlar daxildir.[5]

*1.2. İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu dövlət orqanlarında ştat cədvəllərinin hazırlanması üçün əsasdır.*[6]

*1.3. Ali kateqoriya dövlət orqanlarında inzibati və yardımçı vəzifələr tutan dövlət qulluqçularının həmin dövlət orqanlarının fəaliyyətini, dövlət qulluğu vəzifəsinin adını, qulluq funksiyalarını və vəzifənin tutulması şərtlərini özündə əks etdirən vəzifə təlimatları həmin orqanların rəhbərləri tərəfindən təsdiq edilir.*

*1.4. 1 – 5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci–yeddinci təsnifatlarına uyğun olan vəzifələr*

*üzrə vəzifə təlimatları Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi ümumi şərtlərə uyğun olaraq, Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi ilə razılaşdırılmaqla, müvafiq dövlət orqanlarının rəhbərləri tərəfindən təsdiq edilir.*

~~1.5. Naxçıvan Muxtar Respublikasının qanunvericilik orqanının aparatında, icra hakimiyyəti orqanlarının aparatlarında, həmin orqanların tabeliyində və ya yanında olan icra hakimiyyəti orqanlarının aparatlarında və məhkəmə hakimiyyəti orqanlarının aparatlarında İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq bu Toplu ilə həll edilir.~~ [7]

~~1.6. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 11.4-cü maddəsinə əsasən dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) təminedici bölmələri dedikdə, müvafiq dövlət hakimiyyəti orqanlarının tapşırığı ilə onların vəzifə, funksiya və səlahiyyətlərini həyata keçirən, habelə həmin bölmələrin səlahiyyətinə aid edilmiş məsələləri özləri həll edən dövlət orqanının struktur vahidi nəzərdə tutulur.~~

~~1.7. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 11.4-cü maddəsinə əsasən dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) yardımçı bölmələri dedikdə, müvafiq dövlət hakimiyyəti orqanlarının vəzifə, funksiya və səlahiyyətlərini həyata keçirməyə yardım edən, habelə təminedici bölmələrin işinin təşkilinə kömək edən dövlət orqanının struktur vahidi nəzərdə tutulur.~~

~~1.8. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 8.3-cü maddəsinə əsasən dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) bölmələrinin təminedici və yardımçı bölmələrə aid edilməsi müvafiq dövlət orqanlarının rəhbərləri tərəfindən həll edilir.~~ [8]

1.9. Dövlət orqanlarında aşağıdakı inzibati vəzifələr nəzərdə tutulur: [9]

1.9.1. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri;

~~1.9.2. Azərbaycan Respublikasının Dövlət müşaviri;~~ [10]

*1.9.2-1. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi;* [11]

~~*1.9.2-2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin müavini;*~~

1.9.3. Azərbaycan Respublikası Prezidentinin Katibliyinin rəisi;

~~1.9.4. Azərbaycan Respublikası Prezidentinin müşaviri;~~

1.9.5. Azərbaycan Respublikası Prezidentinin köməkçisi;

*1.9.5-1. Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi;* [12]

1.9.6. Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi;

1.9.7. Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin rəisi;

*1.9.7-1. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi;*

~~1.9.8. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin müavini;~~ [13]

1.9.9. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdiri;

*1.9.9-1. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyi rəisinin müavini;* [14]

*1.9.9-2. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi;*

*1.9.9-3. Azərbaycan Respublikasının vitse-prezidentinin köməkçisi;* [15]

1.9.10. Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti rəisinin müavini;

*1.9.10-1. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini;* [16]

1.9.11. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdirinin müavini;

1.9.12. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin köməkçisi;

1.9.13. Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri və onun birinci müavini;

1.9.14. Azərbaycan Respublikası Prezidentinin İşlər müdirinin müavini;

1.9.15. Azərbaycan Respublikası Prezidentinin İşlər müdirinin köməkçisi;

1.9.16. dövlət orqanı aparatının rəhbəri;

1.9.17. dövlət orqanı aparatının rəhbərinin müavini;

*1.9.17-1. Azərbaycan Respublikası Baş nazirinin Katibliyinin rəisi;* [17]

1.9.18. dövlət orqanı rəhbərinin müşaviri, köməkçisi;

1.9.19. Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin aparatları rəhbərlərinin köməkçiləri;

1.9.20. Azərbaycan Respublikası Baş nazirinin müavininin köməkçisi;

1.9.21. Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavininin köməkçisi;

~~1.9.22. Dövlət müşavirinin köməkçisi;~~

1.9.23. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) *müşaviri və* köməkçisi; [18]

1.9.24. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibi;

1.9.25. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri və onun müavini;

1.9.26. mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərləri;

*1.9.26-1. Azərbaycan Respublikasının xarici ölkələrdə ~~fəaliyyət göstərən səfirlik və konsulluqlarında təyin olunan~~*

*ticarət nümayəndələri;*[19]

1.9.27. mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri rəhbərlərinin müavinləri;

1.9.28. yerli icra hakimiyyəti başçısının birinci müavini, müavini;

1.9.29. dövlət orqanı aparatında şöbə müdiri;

1.9.30. dövlət orqanı aparatında şöbə müdirinin müavini;

1.9.31. dövlət orqanında işlər müdiri;

1.9.32. dövlət orqanında işlər müdirinin müavini;

1.9.33. mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların rəhbərləri;

1.9.34. mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların rəhbərlərinin müavinləri;

*1.9.34-1. mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət xidmətləri və dövlət agentliklərinin aparat rəhbərləri və onların müavinləri;*

*1.9.34-2. mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət xidmətləri və dövlət agentliklərinin rəhbərlərinin müşavirləri, köməkçiləri;*[20]

1.9.35. sektor müdiri;

1.9.36. baş mühasib, baş məsləhətçi;

1.9.37. böyük məsləhətçi;

1.9.38. aparıcı məsləhətçi;

1.9.39. məsləhətçi, məhkəmə iclasının katibi, hakimin köməkçisi;

*1.9.39-1. Yerli icra hakimiyyəti başçısının yanında olan orqanların rəhbəri və onun müavini;* [21]

1.9.40. yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə nümayəndəsi və onun müavini;

1.9.41. yerli icra hakimiyyəti başçısının sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi və onun müavini.

1.10. Dövlət orqanlarında aşağıdakı yardımçı vəzifələr nəzərdə tutulur:

baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis (kargüzar, makinaçı, kuryer, arxiv qeydiyyatçısı, liftçi, sürücü və sair işçilər).

## *2.* İnzibati və yardımçı vəzifələrin təsnifatları və adları:[22]

2.1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq inzibati vəzifələrin aşağıdakı təsnifatları və adları vardır:

2.1.1. İnzibati vəzifələrin ali təsnifatı:

*1.* Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri; [23]

*2.* Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının rəhbəri, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri;

*3.* ~~Azərbaycan Respublikasının Dövlət müşaviri,~~ *Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının rəhbəri;*[24]

*4. Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri, Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətinin rəisi;* [25]

*4-1. Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi;*[26]

*5. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi.* [27]

2.1.2. İnzibati vəzifələrin birinci təsnifatı:

~~*1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin müavini;*~~ [28]

*2.* Azərbaycan Respublikası Prezidentinin Katibliyinin rəisi;

~~*3.* Azərbaycan Respublikası Prezidentinin müşaviri;~~

*4.* Azərbaycan Respublikası Prezidentinin köməkçisi;

~~*4-1. Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi;*~~[29]

*5.* Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi;

*6.* Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin rəisi;

*6-1. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi;*[30]

~~*7.* Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin müavini;~~ [31]

*8.* Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdiri;

*8-1. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyi rəisinin müavini;* [32]

*8-2. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi;*

*8-3. Azərbaycan Respublikasının vitse-prezidentinin köməkçisi;*[33]

*9. Azərbaycan Respublikası Prezidentinin İşlər müdirinin və Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti rəisinin birinci müavinləri və müavinləri, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində şöbə müdiri;*[34]

*9-1. Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətində şöbə müdiri;* [35]

*10.* Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, *Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin* aparatları rəhbərlərinin müavinləri, *Azərbaycan Respublikası Baş nazirinin Katibliyinin rəisi* və həmin dövlət orqanlarının aparatlarında şöbə müdirləri; [36]

*11.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri;

*11-1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdiri;*[37]

*12.* ~~*Azərbaycan Respublikası Ali Məhkəməsi,*~~ Naxçıvan Muxtar Respublikası Ali Məclisi, Azərbaycan Respublikası Hesablama Palatası, Məhkəmə-Hüquq Şurası və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) aparatlarının rəhbərləri;[38]

*13.* Azərbaycan Respublikası Baş nazirinin, Azərbaycan Respublikası Milli Məclisi, *Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikası Ali Məhkəməsi* sədrlərinin müşavirləri, köməkçiləri. [39]

2.1.3. İnzibati vəzifələrin ikinci təsnifatı:

*1.* Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti rəisinin müavini;

*1-1. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini;* [40]

*2.* Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdirinin müavini;

*3.* Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin köməkçisi;

*4. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində şöbə müdirinin müavini;*[41]

*5.* Azərbaycan Respublikası Milli Məclisinin, *Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin* aparatlarında şöbə müdirinin müavini; [42]

*6.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında şöbə müdirinin müavini;

*7.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin Mətbuat xidməti rəhbərinin müavini;

*7-1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdirinin müavini;*[43]

*8.* Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, ~~Azərbaycan Respublikası Nazirlər Kabinetinin,~~ *Azərbaycan Respublikası Ali Məhkəməsinin,* İşlər müdirləri və onların müavinləri; [44]

*9.* ~~*Azərbaycan Respublikası Ali Məhkəməsi,*~~ Naxçıvan Muxtar Respublikası Ali Məclisi, Azərbaycan Respublikası Hesablama Palatası, Məhkəmə-Hüquq Şurası, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) aparatları rəhbərlərinin müavinləri və həmin dövlət orqanlarında şöbə müdirləri; [45]

*10.* Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müşaviri, köməkçisi;

*11.* Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) aparatlarının rəhbərləri;

*12.* Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavininin və Azərbaycan Respublikası Baş nazirinin müavininin köməkçiləri;

*13.* Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərləri, *Azərbaycan Respublikasının xarici ölkələrdə* ~~*fəaliyyət göstərən səfirlik və konsulluqlarında təyin olunan*~~ *ticarət nümayəndələri,* ~~Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru, Azərbaycan Respublikası *Nəqliyyat,* Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun icraçı direktoru,~~ *Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun direktoru;*[46]

*14.* Bakı Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini və müavini.

2.1.4. İnzibati vəzifələrin üçüncü təsnifatı:

*1.* Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

~~2. Azərbaycan Respublikası Dövlət müşavirinin köməkçisi;~~

3. Azərbaycan Respublikası Prezidentinin Katibliyində ~~sektor müdiri,~~ baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;[47]

*4. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, habelə Azərbaycan Respublikası Prezidentinin İşlər müdirinin və Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti rəisinin köməkçiləri;*

*4-1. Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətində baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;*[48]

*4-2. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərində baş məsləhətçi, böyük məsləhətçi, aparıcı*

*məsləhətçi, məsləhətçi;*[49]

*5. Azərbaycan Respublikası Prezidentinin işlər İdarəsinin tabeliyində olan dövlət büdcəsindən maliyyələşdirilən və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin şöbəsi statusuna malik olan təşkilatın rəhbəri, onun müavini, habelə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Sarayının təminatı şöbəsində və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan dövlət büdcəsindən maliyyələşdirilən və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin şöbəsi statusuna malik olan təşkilatda sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;*[50]

*6.* Azərbaycan Respublikası Milli Məclisinin və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin aparatlarında sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, *Azərbaycan Respublikası Ali Məhkəməsinin Aparatında sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, məhkəmə iclasının katibi, hakimin köməkçisi*;[51]

7. Azərbaycan Respublikası Milli Məclis və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi aparatları rəhbərlərinin köməkçiləri;

*8.* Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdirinin köməkçisi;

*9.* Azərbaycan Respublikası Milli Məclisinin*, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin* İşlər İdarəsində şöbə müdiri və şöbə müdirinin müavini, sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;[52]

*10.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

*11.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı rəhbərinin köməkçisi;

*12.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər İdarəsində şöbə müdiri, onun müavini, sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi*, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdirinin köməkçisi;*[53]

*13.* ~~*Azərbaycan Respublikası Ali Məhkəməsinin,*~~ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Azərbaycan Respublikası Hesablama Palatasının, Məhkəmə-Hüquq Şurasının, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) aparatlarında, Azərbaycan Respublikasının Baş Prokurorluğunda şöbə müdirinin müavini;[54]

*14.* ~~*Azərbaycan Respublikasının Ali Məhkəməsi sədrinin*~~, Azərbaycan Respublikasının Hesablama Palatası sədrinin və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) *müşavirləri və* köməkçiləri;[55]

~~*Azərbaycan Respublikası Ali Məhkəməsinin İşlər müdiri və onun müavini;*~~[56]

*15.* Azərbaycan Respublikası apellyasiya məhkəmələri, ~~Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası,~~ Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanları və onlara bərabər tutulan orqanlar*, Azərbaycan Respublikası Audiovizual Şurası aparatlarının, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyinin* rəhbərləri və onların müavinləri;[57]

*16.* Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının rəhbəri;

*17.* Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibi;

*18.* Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) aparatlarının rəhbərlərinin müavinləri və onların aparatlarında şöbə müdirləri, Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda və Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda şöbə müdirləri;[58]

*19.* Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri rəhbərlərinin müavinləri, ~~Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktorunun müavini, Azərbaycan Respublikası *Nəqliyyat,* Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun icraçı direktorunun müavinləri,~~ *Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun direktorunun müavinləri.*[59]

2.1.5. İnzibati vəzifələrin dördüncü təsnifatı:

~~*Azərbaycan Respublikası Ali Məhkəməsinin Aparatında sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, məhkəmə iclasının katibi, hakimin köməkçisi;*~~[60]

*1.* Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Azərbaycan Respublikası Hesablama Palatasının, Məhkəmə-Hüquq Şurasının və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) aparatlarında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Azərbaycan Respublikasının Baş Prokurorluğunda sektor müdiri, *baş mühasib,* baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;[61]

*2.* Naxçıvan Muxtar Respublikası Baş nazirinin müşaviri, köməkçisi;

*3.* Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyi rəhbərinin müavini;

*4.* Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) regional mərkəzlərinin rəhbərləri və onların müavinləri;

*5.* Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin, ~~Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının,~~ Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının və onlara bərabər tutulan orqanların, ~~Azərbaycan~~

~~Respublikası Nazirlər Kabinetinin yanında olan icra hakimiyyəti orqanlarının,~~ Bakı Şəhər İcra Hakimiyyəti başçısının, *Azərbaycan Respublikası Audiovizual Şurasının aparatlarında, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyində* şöbə müdirləri və onların müavinləri; [62]

*5-1. Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət xidmətləri və dövlət agentliklərinin aparat rəhbərləri və onların müavinləri;* [63]

*6.* Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) aparatlarında şöbə müdirlərinin müavinləri;

*7.* yerli icra hakimiyyəti (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) başçısının birinci müavini və müavini;

*8.* Bakı Şəhər İcra Hakimiyyəti başçısının köməkçisi *və müşaviri;* [64]

*9.* Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının və onlara bərabər tutulan orqanların ~~, Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında olan icra hakimiyyəti orqanlarının~~ rəhbərlərinin müşavirləri, köməkçiləri;

*10. Azərbaycan Respublikasının Audiovizual* Şurası sədrinin köməkçisi. [65]

2.1.6. İnzibati vəzifələrin beşinci təsnifatı:

*1.* Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, məhkəmə iclasının katibi, hakimin köməkçisi;

*2.* Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aparatında, Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda və Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın), ~~Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının,~~ Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının və onlara bərabər tutulan orqanların, ~~Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında olan icra hakimiyyəti orqanlarının,~~ Bakı Şəhər İcra Hakimiyyəti başçısının, *Azərbaycan Respublikası Audiovizual Şurasının aparatlarında, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyində* və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyində sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi; [66]

*3.* Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin aparatlarında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, məhkəmə iclasının katibi, hakimin köməkçisi;

*4.* Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) köməkçiləri;

*5.* Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının Naxçıvan Muxtar Respublikası üzrə idarələrinin rəhbərləri və onların müavinləri;

*6.* Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanları aparatlarının rəhbərləri;

*7.* Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyində sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

*8.* Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, ~~Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun,~~ ~~Azərbaycan Respublikası *Nəqliyyat,* Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun~~, *Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun,* Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının, ağır cinayətlər məhkəmələrinin, *inzibati məhkəmələrin, kommersiya məhkəmələrinin,* hərbi məhkəmələrin aparatlarında şöbə müdiri və onun müavini , Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğunda və Bakı Şəhər Prokurorluğunda şöbə müdirləri; [67]

*8-1. Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət xidmətləri və dövlət agentliklərinin rəhbərlərinin müşavirləri, köməkçiləri;* [68]

*9.* Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin köməkçiləri;

*10.* Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Bakı Şəhər İcra Hakimiyyəti *başçısının yanında* olan orqanların rəhbərləri; [69]

~~*11. Azərbaycan Respublikası Ali Məhkəməsinin İşlər İdarəsində şöbə müdiri, onun müavini, sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi,* Azərbaycan Respublikası Baş Prokurorluğunun maddi-texniki təminat funksiyalarını həyata keçirən şöbəsində sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.~~ [70]

2.1.7. İnzibati vəzifələrin altıncı təsnifatı:

*1.* Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, ~~Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun,~~ ~~Azərbaycan Respublikası *Nəqliyyat,* Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun~~, *Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun, Azərbaycan Respublikasının xarici ölkələrdə ~~fəaliyyət göstərən səfirlik və konsulluqlarında təyin olunan~~ ticarət*

*nümayəndələrinin* aparatlarında, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) regional mərkəzlərində, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasında, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarında, Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurasında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;[71]

*2.* ağır cinayətlər məhkəmələrinin, *inzibati məhkəmələrin, kommersiya məhkəmələrinin*, hərbi məhkəmələrin aparatlarında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, məhkəmə iclasının katibi, hakimin köməkçisi, Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğunda və Bakı Şəhər Prokurorluğunda sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;[72]

*3.* yerli icra hakimiyyəti (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) başçılarının aparatlarında şöbə müdiri və onun müavini;

*4.* Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının Naxçıvan Muxtar Respublikası üzrə idarələrinin aparatlarında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

*5.* Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Bakı Şəhər İcra Hakimiyyəti *başçısının yanında* olan orqanların rəhbərlərinin müavinləri;

*6.* Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların yerli bölmələrinin rəhbərləri və onların müavinləri.

2.1.8. İnzibati vəzifələrin yeddinci təsnifatı:

*1.* yerli icra hakimiyyəti (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) başçılarının aparatlarında, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələrində, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanlarda, rayon (şəhər) məhkəmələrinin aparatlarında, rayon (şəhər) prokurorluqlarında və hərbi prokurorluqlarında, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin aparatlarında, Bakı Şəhər İcra Hakimiyyəti *başçısının yanında* olan orqanlarda sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;[73]

*2.* Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların yerli bölmələrində sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

*3. yerli icra hakimiyyəti başçısının yanında olan orqanların rəhbəri, onun müavini, sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi,* yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi, onun müavini, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;[74]

*4.* yerli icra hakimiyyəti (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) başçısının köməkçisi.

2.2. İnzibati vəzifələrin Təsnifat Toplusunun 2-ci hissəsində göstərilən dövlət orqanları rəhbərlərinin və onların müavinlərinin adları qanunvericiliklə müəyyən edilir.

2.3. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 10.6-cı və 11.2-ci maddələrinə, habelə bu Təsnifat Toplusunun 1.10-cu bəndinə uyğun olaraq yardımçı vəzifələrin aşağıdakı təsnifatları və adları vardır:

2.3.1. Yardımçı vəzifələrin birinci təsnifatı:

*1.* Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis;

*2.* Azərbaycan Respublikası Prezidentinin Katibliyində baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis;

*3.* Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və *Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində* baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis;

*4.* Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, *Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin* aparatlarında baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis;[75]

*5.* Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, *Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin* İşlər İdarəsində baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis.

2.3.2. Yardımçı vəzifələrin ikinci təsnifatı:

*1* . ~~*Azərbaycan Respublikası Ali Məhkəməsinin,*~~ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Azərbaycan Respublikası Hesablama Palatasının, Məhkəmə-Hüquq Şurasının, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) aparatlarında, Azərbaycan Respublikasının Baş Prokurorluğunda baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis;[76]

*2.* ~~*Azərbaycan Respublikası Ali Məhkəməsinin İşlər İdarəsində və*~~ Azərbaycan Respublikası Baş Prokurorluğunun

maddi-texniki təminat funksiyalarını həyata keçirən şöbəsində baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis.[77]

2.3.3. Yardımçı vəzifələrin üçüncü təsnifatı:

*1.* Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın), Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin *aparatlarında, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyində*, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyində, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının və onlara bərabər tutulan orqanların, ~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında yaradılan icra hakimiyyəti orqanlarının,~~ Bakı Şəhər İcra Hakimiyyəti başçısının, *Azərbaycan Respublikası Audiovizual* Şurasının, Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, ~~Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun,~~ ~~Azərbaycan Respublikası *Nəqliyyat*, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun,~~ *Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun, Azərbaycan Respublikasının xarici ölkələrdə* ~~*fəaliyyət göstərən səfirlik və konsulluqlarında təyin olunan*~~ *ticarət nümayəndələrinin* aparatlarında, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) regional mərkəzlərində, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasının, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının aparatlarında, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyində, ağır cinayətlər məhkəmələrinin, *inzibati məhkəmələrin, kommersiya məhkəmələrinin*, hərbi məhkəmələrin aparatlarında, Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda, Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda, Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğunda və Bakı Şəhər Prokurorluğunda baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis;[78]

*2.* Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının Naxçıvan Muxtar Respublikası üzrə idarələrinin aparatlarında baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis.

2.3.4. Yardımçı vəzifələrin dördüncü təsnifatı:

*1.* yerli icra hakimiyyəti (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) başçılarının, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların, rayon (şəhər) məhkəmələrinin aparatlarında, rayon (şəhər) prokurorluqlarında, hərbi prokurorluqlarında, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin aparatlarında, Bakı Şəhər İcra Hakimiyyəti *başçısının yanında* olan orqanlarda baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis;[79]

*2.* Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların yerli bölmələrində baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis;

*3. yerli icra hakimiyyəti başçısının yanında olan orqanlarda,* yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərində baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis.[80]

*2.3-1. İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun 2.1.4-cü, 2.1.5-ci, 2.1.6-cı və 2.3.3-cü yarımbəndlərində “Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarına bərabər tutulan orqanlar” dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi nəzərdə tutulur.*[81]

2.4. Dövlət orqanının rəhbəri Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə razılaşdırmaqla, ştat cədvəlində həmin orqanın strukturunun profilini əks etdirən vəzifə adlarını nəzərdə tuta bilər.

2.5. İnzibati vəzifələrin Təsnifat Toplusunun 2-ci hissəsində nəzərdə tutulmayan vəzifələrin müvafiq təsnifatlara uyğunlaşdırılması qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən həll edilir.

## 3. İnzibati və yardımçı vəzifələrin ixtisas dərəcələri

3.1. Dövlət qulluqçusunun ixtisas dərəcəsi onun ixtisas səviyyəsini göstərir, vəzifə maaşına əlavə haqq almaq və sosial təminatlardan istifadə etmək, habelə “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda dövlət qulluqçusuna inzibati vəzifə tutmaq hüququ verir.

3.2. İnzibati vəzifələrin təsnifatına uyğun olaraq aşağıdakı ixtisas dərəcələri verilir:

3.2.1. Təsnifat Toplusunun 2.1.1-ci yarımbəndində nəzərdə tutulan inzibati vəzifələrin ali təsnifatı üzrə – həqiqi dövlət müşaviri, 1-ci dərəcə dövlət müşaviri və 2-ci dərəcə dövlət müşaviri.

3.2.2. Təsnifat Toplusunun 2.1.2-ci yarımbəndində nəzərdə tutulan inzibati vəzifələrin birinci təsnifatı üzrə – 1-ci dərəcə dövlət müşaviri, 2-ci dərəcə dövlət müşaviri və 3-cü dərəcə dövlət müşaviri.

3.2.3. Təsnifat Toplusunun 2.1.3-cü yarımbəndində nəzərdə tutulan inzibati vəzifələrin ikinci təsnifatı üzrə – 2-ci dərəcə dövlət müşaviri, 3-cü dərəcə dövlət müşaviri və dövlət qulluğunun baş müşaviri.

3.2.4. Təsnifat Toplusunun 2.1.4-cü yarımbəndində nəzərdə tutulan inzibati vəzifələrin üçüncü təsnifatı üzrə – dövlət qulluğunun baş müşaviri, dövlət qulluğunun müşaviri və dövlət qulluğunun kiçik müşaviri.

3.2.5. Təsnifat Toplusunun 2.1.5-ci yarımbəndində nəzərdə tutulan inzibati vəzifələrin dördüncü təsnifatı üzrə – dövlət qulluğunun müşaviri, dövlət qulluğunun kiçik müşaviri və 1-ci dərəcə dövlət qulluqçusu.

3.2.6. Təsnifat Toplusunun 2.1.6-cı yarımbəndində nəzərdə tutulan inzibati vəzifələrin beşinci təsnifatı üzrə – dövlət qulluğunun kiçik müşaviri, 1-ci dərəcə dövlət qulluqçusu və 2-ci dərəcə dövlət qulluqçusu.

3.2.7. Təsnifat Toplusunun 2.1.7-ci yarımbəndində nəzərdə tutulan inzibati vəzifələrin altıncı təsnifatı üzrə – 1-ci dərəcə dövlət qulluqçusu, 2-ci dərəcə dövlət qulluqçusu və 3-cü dərəcə dövlət qulluqçusu.

3.2.8. Təsnifat Toplusunun 2.1.8-ci yarımbəndində nəzərdə tutulan inzibati vəzifələrin yeddinci təsnifatı üzrə – 2-ci dərəcə dövlət qulluqçusu, 3-cü dərəcə dövlət qulluqçusu və kiçik dövlət qulluqçusu.

3.3. Yardımçı vəzifələrin təsnifatına uyğun olaraq aşağıdakı ixtisas dərəcələri verilir:

3.3.1. Təsnifat Toplusunun 2.3.1-ci yarımbəndində nəzərdə tutulan yardımçı vəzifələrin birinci təsnifatı üzrə – dövlət qulluğunun baş referenti, dövlət qulluğunun böyük referenti və dövlət qulluğunun 1-ci dərəcə referenti.

3.3.2. Təsnifat Toplusunun 2.3.2-ci yarımbəndində nəzərdə tutulan yardımçı vəzifələrin ikinci təsnifatı üzrə – dövlət qulluğunun böyük referenti, dövlət qulluğunun 1-ci dərəcə referenti və dövlət qulluğunun 2-ci dərəcə referenti.

3.3.3. Təsnifat Toplusunun 2.3.3-cü yarımbəndində nəzərdə tutulan yardımçı vəzifələrin üçüncü təsnifatı üzrə – dövlət qulluğunun 1-ci dərəcə referenti, dövlət qulluğunun 2-ci dərəcə referenti və dövlət qulluğunun 3-cü dərəcə referenti.

3.3.4. Təsnifat Toplusunun 2.3.4-cü yarımbəndində nəzərdə tutulan yardımçı vəzifələrin dördüncü təsnifatı üzrə – dövlət qulluğunun 2-ci dərəcə referenti, dövlət qulluğunun 3-cü dərəcə referenti və dövlət qulluğunun kiçik referenti.

### *4.* İnzibati və yardımçı vəzifələrin tutulması üçün ixtisas tələbləri

4.1. İnzibati vəzifələrin tutulması üçün ixtisas tələbləri qanunvericilik, icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanlarının funksiyalarının təmin edilməsi və inzibati vəzifənin icra olunması üçün inzibati vəzifəni tutmaq iddiasında olan şəxsə münasibətdə zəruri təhsilin və hazırlığın olmasını əks etdirir, habelə həmin şəxsin səriştəsinin müəyyən edilmiş funksiyalara uyğunluğunu təmin edir.

4.2. İnzibati vəzifə iddiasında olan şəxsin müvafiq (profilli) ali təhsili olmalıdır. Həmin şəxsin başqa ali təhsili olduqda, o, ixtisasını dəyişdirib iddiasında olduğu inzibati vəzifənin profilini öyrənməlidir. İnzibati vəzifə iddiasında olan şəxs Azərbaycan Respublikasının Konstitusiyasını, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununu, müvafiq inzibati vəzifələr sahəsində münasibətləri tənzimləyən normativ hüquqi aktları bilməli və eləcə də öz funksional vəzifələrinin icrası ilə əlaqədar olaraq öz ixtisasına müvafiq digər zəruri biliklərə malik olmalıdır.

4.3. Yardımçı vəzifə iddiasında olan şəxsin tam orta təhsili olmalıdır. ~~Həmin şəxsin başqa orta təhsili və ya ümumi orta təhsili olduqda, o, hazırlığını dəyişdirib iddiasında olduğu yardımçı vəzifənin profilini öyrənməlidir.~~ Yardımçı vəzifə iddiasında olan şəxs müvafiq yardımçı vəzifələr sahəsində münasibətləri tənzimləyən normativ hüquqi aktları bilməli və eləcə də öz funksional vəzifələrinin icrası ilə əlaqədar olaraq öz ixtisasına müvafiq digər zəruri biliklərə malik olmalıdır.[82]

4.4. İnzibati və yardımçı vəzifələr sahəsində əlavə tələblər qanunvericiliklə və vəzifə təlimatları ilə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq müəyyən edilir.

### ~~V. Keçid müddəaları~~[83]

~~İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu tətbiq edilənədək dövlət orqanlarında (1-ci və 2-ci kateqoriya dövlət orqanları istisna olmaqla) və onların bölmələrində müvafiq təsnifatlar üzrə mövcud olan baş idarə, idarə, departament və müstəqil şöbə rəisləri — şöbə müdirinə, şöbə rəisləri — sektor müdirinə, baş mütəxəssis vəzifələri baş məsləhətçi və ya böyük məsləhətçi vəzifələrinə, aparıcı mütəxəssis vəzifələri aparıcı məsləhətçi vəzifələrinə, mütəxəssis vəzifələri isə məsləhətçi vəzifələrinə uyğunlaşdırılırlar.~~

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 6 mart 2006-cı il tarixli 378 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2006-cı il, 3, maddə 229**)
2. 22 iyun 2006-cı il tarixli 421 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2006-cı il, 6, maddə 498**)
3. 1 fevral 2007-ci il tarixli 520 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 86**)
4. 28 fevral 2007-ci il tarixli 535 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 101**)
5. 5 mart 2007-ci il tarixli 537 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2007-ci il, 3, maddə 217**)
6. 12 mart 2007-ci il tarixli 548 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2007-ci il, 3, maddə 227**)
7. 3 iyul 2007-ci il tarixli 607 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 714**)
8. 27 sentyabr 2007-ci il tarixli 629 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Qanunvericilik Toplusu,**

**2007-ci il, 9, maddə 867)**

9. 26 oktyabr 2007-ci il tarixli 643 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2007-ci il, 10, maddə 948)**

10. 26 dekabr 2007-ci il tarixli **692** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2007-ci il, 12, maddə 1242)**

11. 31 yanvar 2008-ci il tarixli 705 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2008-ci il, 1, maddə 9)**

12. 6 mart 2008-ci il tarixli 724 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2008-ci il, 3, maddə 173)**

13. 11 mart 2008-ci il tarixli 730 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2008-ci il, 3, maddə 179)**

14. 20 iyun 2008-ci il tarixli 781 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 499**)

15. 6 avqust 2008-ci il tarixli **810** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 8 avqust 2008-ci il, 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 717)**

16. 21 avqust 2008-ci il tarixli 816 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 23 avqust 2008-ci il, 187, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 723)**

17. 13 fevral 2009-cu il tarixli 53 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 15 fevral 2009-cu il, 36, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 02, maddə 66)**

18. 24 iyun 2009-cu il tarixli 109 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 25 iyun 2009-cu il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 421**)

19. 24 iyun 2009-cu il tarixli 107 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 26 iyun 2009-cu il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 419)**

20. 24 iyun 2009-cu il tarixli 110 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 422)**

21. 10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 11 fevral 2010-cu il, 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 2, maddə 80)**

22. 15 mart 2010-cu il tarixli **232** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 17 mart 2010-cu il, 60, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 3, maddə 183)**

23. 1 oktyabr 2010-cu il tarixli **338** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 2 oktyabr 2010-cu il, 215, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 10, maddə 850)**

24. 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85)**

25. 1 noyabr 2012-ci il tarixli **718** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti 3 noyabr 2012-ci il, 245, "Azərbaycan" qəzeti, 4 noyabr 2012-ci il, 24651, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 12, maddə 1078 )**

26. 5 mart 2013-cü il tarixli **834** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 6 mart 2013-cü il, 51 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 03, maddə 236)**

27. 28 avqust 2013-cü il tarixli **958** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti 30 avqust 2013-cü il, 188, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 08, maddə 901)**

28. 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027)**

29. 6 may 2016-cı il tarixli **893** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 5, maddə 854)**

30. 9 iyun 2016-cı il tarixli **933** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 10 iyun 2016-cı il, 124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1029)**

31. 24 iyun 2016-cı il tarixli **977** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 26 iyun 2016-cı il, 137 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1073)**

32. 30 may 2017-ci il tarixli **1436** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 840)**

33. 5 avqust 2017-ci il tarixli **1572** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 avqust 2017-ci il, 169 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1519)**

34. 7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521)**

35. 5 iyul 2018-ci il tarixli **159** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1445)**

36. 13 iyul 2018-ci il tarixli **200** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 14 iyul 2018-ci il, 154, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1486)**

37. 27 noyabr 2018-ci il tarixli **374** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2287)**

38. 25 yanvar 2019-cu il tarixli **486** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti 26 yanvar 2019-cu il, 20 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 1, maddə 76)**

39. 23 aprel 2019-cu il tarixli **657** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 655)**

40. 12 iyun 2019-cu il tarixli **735** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6, maddə 1027)**

41. [1 iyul 2019-cu il tarixli **762** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1211)**

42. [28 avqust 2019-cu il tarixli **823** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1405)**

43. [30 aprel 2020-ci il tarixli **1006** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 4, maddə 423)**

44. [18 iyun 2020-ci il tarixli **1067** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 19 iyun 2020-ci il, 116 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 708)**

45. [4 fevral 2021-ci il tarixli **1279** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 5 fevral 2021-ci il, 26 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 121)**

46. [22 fevral 2021-ci il tarixli **1291** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 23 fevral 2021-ci il, 41 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 133)**

47. [23 iyul 2021-ci il tarixli **1410** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 24 iyul 2021-ci il, 151 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 744)**

48. [20 sentyabr 2021-ci il tarixli **1442** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 21 sentyabr 2021-ci il, 201 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 9, maddə 982)**

49. [22 yanvar 2022-ci il tarixli **1580** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 23 yanvar 2022-ci il, 15 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 1, maddə 27)**

50. [5 aprel 2022-ci il tarixli **1642** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 aprel 2022-ci il, 69, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 4, maddə 303)**

51. [12 yanvar 2023-cü il tarixli **1962** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 12 yanvar 2023-cü il, "Azərbaycan" qəzeti, 13 yanvar 2023-cü il, 7, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 1, maddə 50)**

52. [10 aprel 2023-cü il tarixli **2095** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 10 aprel 2023-cü il, "Azərbaycan" qəzeti, 11 aprel 2023-cü il, 74** )

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 11 fevral 2010-cu il, 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 2, maddə 80**) ilə 3-cü bənddə (hər iki halda) "**Prezidentinin İcra Aparatının**" sözləri "**Prezidentinin Administrasiyasının**" sözləri ilə əvəz edilmişdir.

[2] 27 sentyabr 2007-ci il tarixli 629 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2007-ci il, 9, maddə 867**) ilə 7-ci bənddən "**Beynəlxalq Müqavilələrdən İrəli Gələn Mübahisələrə dair Azərbaycan Respublikası İqtisad Məhkəməsinə,**" sözləri çıxarılmışdır və həmin bənddə "**Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə,** " sözlərindən sonra "**Ağır Cinayətlərə dair İşlər üzrə Naxçıvan Muxtar Respublikasının Məhkəməsinə,** " sözləri əlavə edilmişdir.

5 mart 2013-cü il tarixli **834** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 6 mart 2013-cü il, 51 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 03, maddə 236**) ilə 7-ci bəndə "**Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə**," sözlərindən sonra "**Azərbaycan Respublikasının Baş Prokurorluğuna**," sözləri əlavə edilmişdir.

[3] 10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 11 fevral 2010-cu il, 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 2, maddə 80**) ilə "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun mətnində ismin müvafiq hallarında "**Prezidentinin İcra Aparatı**" sözləri ismin müvafiq hallarında "**Prezidentinin Administrasiyası**" sözləri ilə əvəz edilmişdir.

1 oktyabr 2010-cu il tarixli **338** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 2 oktyabr 2010-cu il, 215, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 10, maddə 850**) ilə "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun 2.1.7-ci və 3.2.7-ci bəndlərin üçüncü abzaslarında, 2.1.8-ci və 3.2.8-ci bəndlərdə, 2.1.9-cu və 3.2.9-cu bəndlərin ikinci abzaslarında, 2.3.6-cı və 3.4.6-cı bəndlərin üçüncü abzaslarında "**mərkəzi icra hakimiyyəti orqanlarının yanında olan**" sözləri "**Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yanında olan**" sözləri ilə əvəz edilmişdir.

**[4]** [5 iyul 2018-ci il tarixli **159** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1445**) ilə **I, II, III və IV hissələr** müvafiq olaraq **1-ci, 2-ci, 3-cü və 4-cü hissələr** hesab edilmişdir.

[5] 24 iyun 2009-cu il tarixli 107 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 26 iyun 2009-cu il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 419**) ilə "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun 1.1-ci bənddə "**vəzifələrinin ixtisas dərəcələri, adları, dərəcələr üzrə bölgü**" sözləri "**vəzifələrinin təsnifatları və adları, ixtisas dərəcələri**" sözləri ilə əvəz edilmişdir.

[10 aprel 2023-cü il tarixli **2095** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 10 aprel 2023-cü il, "Azərbaycan" qəzeti, 11 aprel 2023-cü il, 74**) ilə "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun 1.1-ci bəndində "**12.1-ci**" sözləri "**1.1.11-ci**" sözləri ilə əvəz edilmişdir və həmin bənddən "**və vəzifələrin tutulması şərtləri**" sözləri çıxarılmışdır.

[6] [10 aprel 2023-cü il tarixli **2095** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 10 aprel 2023-cü il, "Azərbaycan" qəzeti, 11 aprel 2023-cü il, 74**) ilə "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun 1.2 – 1.4-cü bəndləri yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~1.2. İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 12.2-ci maddəsinə~~

~~müvafiq olaraq dövlət orqanlarının ştat cədvəllərinin hazırlanması və dövlət qulluqçularının vəzifə təlimatlarının hazırlanması üçün əsasdır.~~

~~1.3. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının aparatlarında, həmin orqanların tabeliyində və ya yanında olan icra hakimiyyəti orqanlarında və onların aparatlarında bu orqanların ixtisaslaşdırılmış fəaliyyətini, vəzifənin adını, qulluq funksiyalarını və vəzifənin tutulması şərtlərini özündə əks etdirən inzibati və yardımçı vəzifələri tutan dövlət qulluqçularının vəzifə təlimatları Azərbaycan Respublikası Prezidenti və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının (nazirliklərin, dövlət komitələrinin və digərlərinin) rəhbərləri tərəfindən "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununa və ona uyğun olaraq qəbul edilmiş dövlət qulluğu sahəsində başqa qanunvericilik aktlarına müvafiq olaraq qəbul edilir.~~

~~1.4. Qanunvericilik və məhkəmə hakimiyyəti orqanlarının aparatlarında dövlət qulluğu keçən inzibati və yardımçı vəzifələr tutan dövlət qulluqçularının vəzifə təlimatları həmin orqanların ixtisaslaşdırılmış fəaliyyətini, vəzifənin adını, qulluq funksiyalarını və vəzifənin tutulması şərtlərini özündə əks etdirən vəzifə təlimatları qanunvericilik və məhkəmə hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən həll edilir.~~

[7] 10 aprel 2023-cü il tarixli **2095** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 10 aprel 2023-cü il, "Azərbaycan" qəzeti, 11 aprel 2023-cü il, 74**) ilə "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun 1.5–1.8-ci bəndləri ləğv edilmişdir.

[8] 12 mart 2007-ci il tarixli 548 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2007-ci il, 3, maddə 227**) ilə "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun 1.6-1.8-ci bəndlər aşağıdakı redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1.6. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsinə əsasən dövlət orqanlarının aparıcı bölmələri dedikdə, müvafiq dövlət hakimiyyəti orqanlarının tapşırığı ilə onların funksiya və səlahiyyətlərini həyata keçirən, habelə həmin bölmələrin səlahiyyətinə aid edilmiş məsələləri özləri həll edən dövlət orqanının struktur vahidi nəzərdə tutulur.~~

~~1.7. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsinə əsasən dövlət orqanlarının köməkçi bölmələri dedikdə, müvafiq dövlət hakimiyyəti orqanlarının funksiya və səlahiyyətlərini həyata keçirməyə yardım edən, habelə aparıcı bölmələrin işinin təşkilinə kömək edən dövlət orqanının struktur vahidi nəzərdə tutulur.~~

~~1.8. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsinə əsasən dövlət orqanlarının bölmələrinin aparıcı və köməkçi bölmələrə aid edilməsi müvafiq dövlət orqanlarının rəhbərləri tərəfindən həll edilir.~~

**[9]** 1 noyabr 2012-ci il tarixli **718** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti 3 noyabr 2012-ci il, 245, "Azərbaycan" qəzeti, 4 noyabr 2012-ci il, 246, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 12, maddə 1078** ) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun 1-ci hissəsinin 1.9-cu və 1.10-cu bəndləri yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1.9. İnzibati vəzifələr aşağıdakı kimi ola bilər:~~
~~dövlət orqanının aparatının rəhbəri;~~
~~dövlət orqanının aparatının rəhbərinin müavini (müavinləri);~~
~~Azərbaycan Respublikasının Dövlət müşaviri;~~
~~Azərbaycan Respublikası Prezidentinin Katibliyinin rəisi;~~
~~Azərbaycan Respublikası Prezidentinin köməkçisi;~~
~~Azərbaycan Respublikası Prezidentinin müşaviri;~~
~~Azərbaycan Respublikası Prezidentinin mətbuat xidmətinin rəhbəri — Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi;~~
~~Azərbaycan Respublikası Milli Məclisinin sədrinin köməkçisi, Azərbaycan Respublikası Hesablama Palatasının sədrinin köməkçisi;~~ ~~[9]~~
~~Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinin köməkçisi;~~
~~Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədrinin köməkçisi;~~
~~Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) köməkçisi;~~ ~~[9]~~
~~Azərbaycan Respublikası Baş nazirinin köməkçisi;~~
~~Azərbaycan Respublikası Baş nazirinin müavininin (müavinlərinin) köməkçisi;~~
~~Azərbaycan Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri;~~
~~dövlət orqanları aparatlarında şöbə müdirləri;~~
~~dövlət orqanları aparatlarında şöbə müdirlərinin müavini (müavinləri);~~
~~dövlət orqanlarında işlər müdiri;~~
~~dövlət orqanlarında işlər müdirinin müavini (müavinləri);~~
~~dövlət orqanının aparatının rəhbərinin köməkçisi;~~
~~dövlət orqanları aparatlarında sektor müdiri;~~
~~baş məsləhətçi;~~
~~böyük məsləhətçi;~~
~~aparıcı məsləhətçi;~~
~~məsləhətçi.~~
~~1.10. Yardımçı vəzifələr aşağıdakı kimi ola bilər:~~
~~baş mütəxəssis;~~
~~böyük mütəxəssis;~~
~~aparıcı mütəxəssis;~~
~~mütəxəssis.~~

**[10]** 5 iyul 2018-ci il tarixli **159** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1445**) ilə **1.9.2-ci, 1.9.2-2-ci, 1.9.4-cü və 1.9.22-ci** yarımbəndlər ləğv edilmişdir.

**[11]** 30 may 2017-ci il tarixli **1436** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 840**) ilə "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"na yeni məzmunda 1.9.2-1-ci və 1.9.2-2-ci yarımbəndlər əlavə edilmişdir.

**[12]** 1 iyul 2019-cu il tarixli **762** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1211**) ilə 1.9.5-1-ci yarımbənd əlavə edilmişdir.

28 avqust 2019-cu il tarixli **823** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1405**) ilə "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nın 1.9.5-1-ci yarımbənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~*1.9.5-1. Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi;*~~

[13] 30 may 2017-ci il tarixli **1436** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 840**) ilə "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun 1.9.8-ci yarımbəndi ləğv edilmişdir.

[14] 30 may 2017-ci il tarixli **1436** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 840**) ilə "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"na yeni məzmunda 1.9.9-1-ci və 1.9.9-2-ci yarımbəndlər əlavə edilmişdir.

[15] 5 iyul 2018-ci il tarixli **159** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1445**) ilə 1.9.9-3-cü yarımbənd əlavə edilmişdir.

[16] 4 fevral 2021-ci il tarixli **1279** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 5 fevral 2021-ci il, 26 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2 maddə 121**) ilə "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"na yeni məzmunda 1.9.7-1-ci və 1.9.10-1-ci yarımbəndlər əlavə edilmişdir.

[17] 13 iyul 2018-ci il tarixli **200** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 14 iyul 2018-ci il, 154, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1486**) ilə "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"na yeni məzmunda 1.9.17-1-ci yarımbənd əlavə edilmişdir.

[18] 10 aprel 2023-cü il tarixli **2095** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 10 aprel 2023-cü il, "Azərbaycan" qəzeti, 11 aprel 2023-cü il, 74**) ilə "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun 1.9.23-cü yarımbəndinə "**köməkçisi**" sözündən əvvəl "**müşaviri və**" sözləri əlavə edilmişdir.

[19] 25 yanvar 2019-cu il tarixli **486** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti 26 yanvar 2019-cu il, 20 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 1, maddə 76**) ilə "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"na yeni məzmunda 1.9.26-1-ci yarımbənd əlavə edilmişdir.

22 yanvar 2022-ci il tarixli **1580** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 23 yanvar 2022-ci il, 15, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 1, maddə 27**) ilə "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun 1.9.26-1-ci yarımbəndindən, 2.1.3-cü yarımbəndinin 13-cü abzasından, 2.1.7-ci yarımbəndinin 1-ci abzasından və 2.3.3-cü yarımbəndinin 1-ci abzasından "**fəaliyyət göstərən səfirlik və konsulluqlarında təyin olunan** " sözləri çıxarılmışdır.

[20] 12 yanvar 2023-cü il tarixli **1962** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 12 yanvar 2023-cü il, "Azərbaycan" qəzeti, 13 yanvar 2023-cü il, 7, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 1, maddə 50**) ilə "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"na yeni məzmunda 1.9.34-1-ci və 1.9.34-2-ci yarımbəndlər əlavə edilmişdir.

[21] 5 avqust 2017-ci il tarixli **1572** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 avqust 2017-ci il, 169, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1519**) ilə "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"na yeni məzmunda 1.9.39-1-ci yarımbənd əlavə edilmişdir.

[22] 1 noyabr 2012-ci il tarixli **718** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti 3 noyabr 2012-ci il, 245, "Azərbaycan" qəzeti, 4 noyabr 2012-ci il, 246, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 12, maddə 1078** ) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun 2-ci və 3-cü hissələri yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**II. İnzibati və yardımçı vəzifələrin təsnifatları və adları**~~ [22]

~~2.1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq inzibati vəzifələrin aşağıdakı təsnifatları və adları vardır:~~

~~**2.1.1. İnzibati vəzifələrin birinci təsnifatı:**~~

~~Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Azərbaycan Respublikasının Dövlət müşaviri;~~

[22] ~~Azərbaycan Respublikası Milli Məclisinin Aparatının rəhbəri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatının rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri, Azərbaycan Respublikası Hesablama Palatasının Aparatının rəhbəri;~~ [22]

~~Azərbaycan Respublikası Ali Məhkəməsinin Aparatının rəhbəri;~~

~~Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Aparatının rəhbəri;~~

~~Məhkəmə-Hüquq Şurası Aparatının rəhbəri;~~ [22]

~~Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) Aparatının rəhbəri.~~ [22]

~~**2.1.2. İnzibati vəzifələrin ikinci təsnifatı:**~~

~~Azərbaycan Respublikası Prezidentinin Katibliyinin rəisi, Azərbaycan Respublikası Prezidentinin müşaviri, Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbərinin müavini, Azərbaycan Respublikası Prezidentinin Prezidentinin Administrasiyasının təminedici şöbəsinin müdiri, Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi, Azərbaycan Respublikası Prezidentinin işlər müdiri, Azərbaycan Respublikası Prezidentinin işlər müdirinin birinci müavini, Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətinin rəisi;~~ [22]

~~Azərbaycan Respublikası Milli Məclisinin Aparatının rəhbərinin müavini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatının rəhbərinin müavini, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbərinin müavini, Azərbaycan Respublikası Milli Məclisinin Aparatının təminedici şöbəsinin müdiri, Azərbaycan Respublikası Milli Məclisi sədrinin köməkçisi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatının təminedici şöbəsinin müdiri, Azərbaycan Respublikası Baş nazirinin köməkçisi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının təminedici şöbəsinin müdiri, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin köməkçisi, Azərbaycan Respublikası Hesablama Palatasının Aparatının təminedici şöbəsinin müdiri, Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdiri;~~ [22]

Kabinetinin Aparatının rəhbərinin köməkçisi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatının yardımçı şöbəsinin müdiri və müdir müavini, Azərbaycan Respublikası Baş nazirinin müavininin köməkçisi;

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) Aparatının rəhbərinin müavini, təminedici şöbəsinin müdiri, Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin aparatlarının rəhbərlərinin müavini, təminedici şöbəsinin müdiri; [22]

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının təminedici şöbəsinin müdir müavini, yardımçı şöbəsinin müdiri və müdir müavini, Naxçıvan Muxtar Respublikası Baş nazirinin köməkçisi, Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyi rəhbərinin müavini, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Aparatının təminedici şöbəsinin müdir müavini, yardımçı şöbəsinin müdiri və müdir müavini, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) Aparatının təminedici şöbəsinin müdir müavini, yardımçı şöbəsinin müdiri və müdir müavini; [22]

Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibi; [22]

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatının rəhbəri və rəhbərin müavini, Azərbaycan Respublikası Hesablama Palatasının Aparatının rəhbəri və rəhbərin müavini; Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsinin Aparatının rəhbəri və rəhbərin müavini, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) Aparatının rəhbəri və rəhbərin müavini, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin Aparatının rəhbəri və rəhbərin müavini, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Hərbi Məhkəməsinin Aparatının rəhbəri və rəhbərin müavini, Ağır Cinayətlərə dair İşlər üzrə Naxçıvan Muxtar Respublikası Məhkəməsinin Aparatının rəhbəri və rəhbərin müavini; [22]

Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının Aparatının rəhbəri və rəhbərin müavini, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında olan mərkəzi icra hakimiyyəti orqanları Aparatının, Milli Televiziya və Radio Şurası Aparatının, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatının rəhbəri və rəhbərin müavini, Bakı Şəhər İcra Hakimiyyəti başçısının Aparatının rəhbəri və rəhbərin müavini, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında olan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərinin müavini, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktorunun müavini, Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının katibi; [22]

Bakı şəhər icra hakimiyyəti başçısının müavini. [22]

**2.1.5. İnzibati vəzifələrin beşinci təsnifatı:** [22]

Azərbaycan Respublikası Ali Məhkəməsinin İşlər İdarəsində şöbə müdiri və müdir müavini, sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi; [22]

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin İşlər İdarəsində şöbə müdiri və müdir müavini, sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi; [22]

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər İdarəsinin şöbə müdiri və müdir müavini, sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatında, Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyində sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatında sektor müdiri, baş mühasib, sədrin köməkçisi, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, hakimin köməkçisi, məhkəmə iclasının katibi, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) Aparatında sektor müdiri, baş mühasib, müvəkkilin (ombudsmanın) köməkçisi, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi; [22]

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) Aparatının təminedici şöbəsinin müdir müavini, yardımçı şöbəsinin müdiri və müdir müavini, Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin aparatlarının təminedici şöbəsinin müdir müavini, yardımçı şöbəsinin müdiri və müdir müavini, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin Aparatının təminedici şöbəsinin müdir müavini, yardımçı şöbəsinin müdiri və müdir müavini, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin Aparatının təminedici şöbəsinin müdir müavini, yardımçı şöbəsinin müdiri və müdir müavini; [22]

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatının (təminedici və yardımçı) şöbəsinin müdiri və müdir müavini, Azərbaycan Respublikası Hesablama Palatasının Aparatının (təminedici və yardımçı) şöbəsinin müdiri və müdir müavini, Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsinin Aparatının (təminedici və yardımçı) şöbəsinin müdiri və müdir müavini, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) Aparatının (təminedici və yardımçı) şöbəsinin müdiri və müdir müavini, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin Aparatının (təminedici və yardımçı) şöbəsinin müdiri və müdir müavini, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Hərbi Məhkəməsinin Aparatının (təminedici və yardımçı) şöbəsinin müdiri və müdir müavini, Ağır Cinayətlərə dair İşlər üzrə Naxçıvan Muxtar Respublikası Məhkəməsinin Aparatının (təminedici və yardımçı) şöbəsinin müdiri və müdir müavini; [22]

Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının aparatlarında, Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının Katibliyində (təminedici və yardımçı)şöbə müdiri və müdir müavini, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərinin köməkçisi, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında olan mərkəzi icra hakimiyyəti orqanlarının aparatında, Milli Televiziya və Radio Şurası Aparatında, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatında (təminedici və yardımçı) şöbə müdiri və müdir müavini, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında olan mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərinin, Milli Televiziya və Radio Şurası sədrinin köməkçisi, Bakı Şəhər İcra Hakimiyyəti başçısının Aparatında (təminedici və yardımçı) şöbə müdiri və müdir müavini; [22]

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında və ya onun qərarı ilə yaradılan orqanların aparatlarında Aparatın rəhbəri və rəhbərin müavini, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanları yanında olan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun aparatlarında Aparatın rəhbəri və rəhbərin müavini, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) regional mərkəzlərinin, Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası Aparatının rəhbərləri və rəhbərlərinin müavinləri, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının aparatlarında Aparatın rəhbəri və rəhbərin müavini, Naxçıvan Muxtar Respublikasının Sahibkarlığa Kömək Fondunun, Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzinin rəhbəri, şöbə (aparıcı və köməkçi) müdiri və müdir müavini, rayon, şəhər və şəhərdə rayon icra hakimiyyəti başçılarının müavinləri. [22]

**2.1.6. İnzibati vəzifələrin altıncı təsnifatı:** [22]

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) Aparatında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin aparatlarında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, hakimin köməkçisi, məhkəmə iclasının katibi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin Aparatında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin Aparatında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, hakimin köməkçisi, məhkəmə iclasının katibi; [22]

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı

məsləhətçi, məsləhətçi, Azərbaycan Respublikası Hesablama Palatasının Aparatının sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsinin Aparatında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, hakimin köməkçisi, məhkəmə iclasının katibi, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) Aparatının sektor müdiri, baş mühasibi, baş məsləhətçisi, böyük məsləhətçisi, aparıcı məsləhətçisi, məsləhətçisi, Ağır Cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin Aparatının sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, hakimin köməkçisi, məhkəmə iclasının katibi, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Hərbi Məhkəməsinin Aparatında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, hakimin köməkçisi, məhkəmə iclasının katibi, Ağır Cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikası Məhkəməsinin Aparatında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, hakimin köməkçisi, məhkəmə iclasının katibi, Naxçıvan Muxtar Respublikasının ərazisində Ağır Cinayətlərə dair İşlər üzrə Hərbi Məhkəmənin yurisdiksiyasını həyata keçirən müvafiq hərbi məhkəmənin aparatında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, hakimin köməkçisi, məhkəmə iclasının katibi; [22]

Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyində baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi; [22]

Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının aparatlarında, Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının Katibliyində sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Bakı Şəhər İcra Hakimiyyəti başçısının Aparatında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında olan mərkəzi icra hakimiyyəti orqanlarının aparatlarında, Milli Televiziya və Radio Şurası Aparatında, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi; [22]

Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında olan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun aparatlarında, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının Aparatında (təminedici və yardımçı) şöbə müdiri və müdir müavini, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının Naxçıvan Muxtar Respublikası üzrə idarəsinin rəhbəri və rəhbərinin müavini, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının aparatlarında (təminedici və yardımçı) şöbə müdiri və müdir müavini, rəhbərin köməkçisi, Naxçıvan Muxtar Respublikasının Sahibkarlığa Kömək Fondunun, Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzinin aparatlarında (təminedici və yardımçı) şöbə müdiri və müdir müavini; [22]

rayon, şəhər və şəhərdə rayon icra hakimiyyəti başçılarının (Bakı Şəhər İcra Hakimiyyəti başçısı istisna olmaqla) aparat rəhbəri və rəhbərin müavini. [22]

-

**2.1.7. İnzibati vəzifələrin yeddinci təsnifatı:** [22]

Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında olan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun aparatlarında, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) regional mərkəzlərində, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının Aparatında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının Naxçıvan Muxtar Respublikası üzrə idarələrində,Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının aparatlarında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Naxçıvan Muxtar Respublikasının Sahibkarlığa Kömək Fondunun, Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzinin aparatlarında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi; [22]

Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yanında olan , tabeliyində olan regional orqanların, ikili tabelikdə olan yerli bölmələrinin, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin yerli bölmələrinin rəhbərləri, rayon, şəhər və şəhərdə rayon icra hakimiyyəti başçısının (Bakı Şəhər İcra Hakimiyyəti başçısı istisna olmaqla) aparatının bölmələrinin, Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində olan orqanların rəhbərləri. [22]

-

**2.1.8. İnzibati vəzifələrin səkkizinci təsnifatı:**

Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yanında olan , tabeliyində olan regional orqanların, ikili tabelikdə olan yerli bölmələrinin, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin yerli bölmələrinin rəhbərlərinin müavinləri, rayon, şəhər və şəhərdə rayon icra hakimiyyəti başçısının (Bakı Şəhər İcra Hakimiyyəti başçısı istisna olmaqla) aparatının bölmələrinin, Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində olan orqanların rəhbərlərinin müavinləri. [22]

-

**2.1.9. İnzibati vəzifələrin doqquzuncu təsnifatı:**

